PUBLİSİSTİKA

# AZƏRBAYCAN OĞLUYAM



Ramazan Hüseynov

Mən bu yazımı əvvəl-axır qələmə alacağımı çoxdan bilirdim. Çünki peşə həvəsi, qəlbimdə bu insana qarşı qərar tutan hüdudsuz rəğbət və maraq, 15-16 il bundan öncə tanıdığım, ilk görüşümüzdəcə söz-söhbətimizin tutduğu, sıx ünsiyyət tapdığımız Oqtay Ramazan oğlu Hüseynov barədə təəssüratlarım, düşüncələrim, ürəyimə, yaddaşıma hopan duyğular aramsız körükləndirir, narın-narın alovlandırırdı.

Oqtay müəllimin dəfələrlə Rusiya Federasiyasının paytaxtı Moskvada Azərbaycan diasporu ilə bağlı demək olar ki, bütün ictimai-siyasi, mədəni-kütləvi tədbirlərdə iştirakını görmüşəm, müxtəlif mövzularda, istiqamətlərdə çıxışlarını dinləmişəm, bir çox həmvətənlərimizin buölkədə tale yüklü problemlərinin çözülməsində, həllində yorulmaz fəaliyyətinin, savab əməllərinin, fədakarlıqlarının şahidi olmuşam.

Vaxtaşırı görüşlərimiz, sayğılı dostluq münasibətlərimiz sayəsində xarakterinə az-çox bələd olduğum, taleyin qisməti, Allah vergisi, bacarığı, zəhmətsevərliyi, istedadı, mətin iradəsi, elinə-yurduna, xalqına bağlılığı ilə həyat yollarında inamla, uğurla addımlayan Oqtay müəllim haqqında söz demək məqamının nə vaxt çatdığını heç özüm də bilmədim. Sözün isə qəribə bir xisləti, hikməti var. Haçansa ağlında, ruhunda, duyğularında doğulan bir söz bir də görürsən içində formalaşıb, yoğrulub bişib olub bir yazı...

1966-cı il martın 23-ü idi. Anamız Azərbaycanın hər tərəfində, hər guşəsində olduğu kimi Saatlı bölgəsinin Nərimankənd camaatı da xalqımızın qədim, əziz bayramı – Novruzu böyük məhəbbətlə, fərəhlə, sevinc dolu bir ovqatla keçirirdi. Bayram süfrələrinin novrağı, təravəti hələ pozulmamışdı. Bayram tonqallarının külü hələ soyumamışdı, al-əlvan bayram şamlarının közərtisi hələ getməmişdi, əlləri bayram xınası ilə bəzənmiş qız-gəlin qol götürüb oynayanda adamın gözü, könlü xoşlanırdı. Baharın ilk müjdəçilərindən olan kövrək bənövşələr kol dibindən hələ təzə-təzə boylanır, ətirli nərgiz gülləri üzlərini yenicə oğrun-oğrun göstərirdilər. Bu gün Nərimankənddə də qonaq-qarasız bir ev çətin tapılardı.

Həmin gün Nərimankəndin ədəb-ərkanlı, nüfuzlu, elimizin ulu adətlərini yetərincə qədrini bilib yaşadan ailələrinin birində, Ramazan kişiylə Bikə xanımın ocağında isə ikiqat bayram idi. Tale bu ailəyə tükənməz sevinc, dördüncü övlad, yeni oğul payı bəxş etmişdi.

Ramazan kişi dünya görmüş bir kişi idi. Gözünü açandan işə-gücə başı qarışan, əkən-biçən, torpaqla, təsərrüfatla əlləşən, əlinin zəhməti ilə neçə nemət yetirib ha-

silə gətirən bir insan idi. Gənclik çağlarından əməksevər, halal çörək qazanan bir insan kimi tanınırdı. El arasında hörmət-izzət sahibi idi. Uzun illər kəndlərindəki kolxozda çalışıb, əhli-əyalının, yeddi övladının ruzisini gətirib, onları gözü-könlü tox böyüyürdü.

Oqtayın anası Bikə xanım da bir müddət kolxoz təsərrüfatında işləyib. Sonradan ailədə oğul-uşaq artdıqca, yığışıb-oturub evində, saçını-birçəyini balalarının ağ günü üçün ağardıb, ömrü boyu yoruldum demədən çalışıb-vuruşub, təki balalarım oxusun, gələcəklərini qursun, ağ günə çıxsınlar deyə...

Qəhrəmanımız bu ailənin dördüncü övladı idi. Elə körpə çağlarından, kənd-kəsək arasında qoyun-quzu arxasınca getdiyi vaxtlardan «öz sözünü deməyə» can atardı. Yetərincə dəcəllik edər, yaşıdları arasında sözünün ötməsi üçün dava-dalaşdan da çəkinməzdi. Deyirdilər ki, bu uşağın gözündə qorxu yoxdur. Çayın dərin yerlərində çimir, ağacların lap kəlləsinə dırmaşır, dərədə-təpədə gəzib dolaşmaqdan yorulmurdu. Məktəbdə isə həmişə biliyinə, geniş dünya görünüşünə, zəngin mütaliəsinə, çalışqanlığına, hazırlıq səviyyəsinə görə fərqlənir, bütün dərslərindən yalnız «əla» qiymətlər alırdı. Məktəb illərində ən tələbkar müəllimlər belə Oqtayın bir qayda olaraq dərslərə hazırlıqlı gəlməsindən razılıq edir, onu nümunə göstərirdilər. Ədəb-ərkanına, zəkasına, kamalına, xarakterində özünü büruzə verən səmimiyyətinə, haqqpərəstliyinə, təvazökarlığına, xeyirxahlığına görə müəllimləri də, şagird yoldaşları da hər zaman Oqtayın xətrini əziz tuturdular. Bu yeniyetmə oğlan doğma tədris ocağında öz ictimai fəallığı,təşəbbüskarlığı ilə də seçilir, rayon üzrə məktəblilər arasında fənn olimpiadalarında, dama və şahmat yarışlarında ardıcıl iştirak edir, təqdirəlayiq uğurlar qazanırdı.

Oqtay Hüseynov 1983-cü ildə orta məktəbi bitirəndə sanki düyün düşmüş bir ovqat, duyğular içərisində idi. Səkkiz yaşından atasız böyümüş bu gənc bir tərəfdən qəlbində illərdən bəri qət etdiyi hüquqşunas olmaq arzusuna yetişməyə tələsir, digər tərəfdən isə, necə deyərlər bir bölük bacı-qardaşın güzəran, dərdlərini çəkən anasının onu necə oxudacağını düşünürdü...

Bir məqamı da diqqətə yetirmək istəyirəm. Geniş Muğan çöllərində sığınmış adidən adi bir kənddə qol-budaq atmış Oqtayın illər boyu könlündə pərvəriş tapan, bal dadan arzular, ipə-sapa yatmayan xəyallar yurd salmışdı. Bu xəyallar, arzular Bakıdan başlayıb, Moskvada, İstanbulda, Londonda, Dehlidə, nə bilim dünyanın gözü olan neçə-neçə böyük şəhərlərində dolaşır, cövlan edirdi. Açığı, elə-belə yox, tanınmış, şöhrətli ali məktəblərdən birinin tələbəsi olmaq istəyirdi. Gündəlik həyatın tələbi, diqtəsi isə yenə ön plana keçdi. Oqtay Hüseynov ordu sıralarına yollandı. Əsgərlik illərini Moskva vilayətində çəkdi. Bu müddətdə də intizamı, rəftarı, yüksək döyüş fəallığı ilə fərqlənirdi. Dəfələrlə fəxri fırmanlara, təşəkkürlərə layiq görülən bu azərbaycanlı gənc mərdlik məktəbi olan əsgər həyatında da elinin, yurdunun başını ucaltdı.

Ordudan tərxis ərəfəsində isə hərbi hissə komandiri həmyerlimizə diqqətə layiq xasiyyətnamə ilə yanaşı, ali məktəbə daxil olmaq üçün göndəriş də verdi. 1987-ci ildə Oqtay Hüseynov sabiq Sovetlər İttifaqının ən nüfuzlu, adlı-sanlı ali məktəblərindən birinə

- Patris Lumumba adına Xalqlar Dostluğu Universitetinin «İqtisadiyyat və hüquq» fakültəsinə, hüquqşünaslıq ixtisası üzrə daxil oldu.

Ötən hər gününün romantik, unudulmaz xatirələri bütöv bir ömrə bəs edən tələbəlik illərinin ilk çağlarında Oqtay həyatındakı bu dəyişikliyə, bu reallığa, bu səadətə az qala inana bilmirdi. Yaxşı bilirdi ki, bu gerçəklik ondan dağlardan da azman daxili mütəşəkkillik, səfərbərlik tələb edir. Düşünürdü ki, elin, obanın, yaxının, doğmanın, ən başlacısı isə Bikə ananın gözləri onun dalınca dikilib. Javan həmyerlimiz bu baxışlardakı nigarançılığı, həsrəti və sevgini uzaq Moskvadan apaydın görürdü. Və bu baxışlar onu daha yüksək fəaliyyətə, cəfakeşliyə, birə-beş çalışqanlığa səsləyirdi.

Dünyanın nə hikmətidirsə, çox zaman fəzilət, mənəvi ucalıq, mətinlik, çalışqanlıq əzmi diqqəti tez çəkir, bu keyfiyyətlər öz dəyərini tez alır. Oqtayın elə öz həyatını bu fikrə nümunə gətirmək olar. Tələbəliyin ilk aylarından onun fakültə tələbə şurasının sədri seçilmiş faktını göstərə bilərik. Yurddaşımız da yer üzünün neçə-neçə guşəsindən bu doğma ocağa yığılmış tələbə yoldaşlarının müəllimlərinin, dekanlığın ona göstərdikləri bu böyük inamını, etimadını tələbəliyin düz son günlərinədək layiqincə doğrultdu... İftixar hissi ilə onu da qeyd etmək istəyirəm ki, Qayana Respublikasının indiki prezidenti Çıxarat Baqdiyo bu vəzifədə həmvətənimizin müavini olub.

Oqtay Hüseynov oxuyub-öyrənməyi, biliklərə, öz seçdiyi ixtisasın dərinliklərinə kamil yiyələnməyi, yaşadığı ömrün ən böyük məramı sayırdı. Odur ki, o, inadla, iradə ilə çalışır, günlərinin çox hissəsini kitabxanalarda keçirir, elmi axtarışlar aparır, yeniliklərə vaqif olmağa səy göstərirdi. Çəkilən zəhmət də öz bəhrəsini verir, gənc soydaşımız smestrləri yaxşı və əla qiymətlərlə başa vurur, hər smestrdən sonra yüksək təqaüd yiyəsi olurdu.

Elmi araşdırmalara maraq da onu ciddi düşündürür tələbə həyatının çox mühüm istiqamətlərindən birini təşkil edirdi. Elə bu istək və həvəs Oqtayı birinci smestrdən həm fakültə, həm də Universitet Tələbə Elmi Şurasının üzvlüyünə yönəltdi. O beş il ərzində bu qurumların işində yaxından iştirak etdi, sanballı məqalələri, məruzələri, gərgin elmi yaradıcılığın bəhrələri olan fərəh doğuran müvəffəqiyyətlər qazandı. Joşğun həyat mövqeyi, yorulmaz həyat fəaliyyəti, görünür, Oqtayın daxilindən canından, qanından gəlirdi. Təhsil illərində nə qədər vaxt çatışmazlığı olsa da az-çox ələ düşən asudə saatlarını müxtəlif xarici dilləri, ərəb, yapon, ingilis dillərini öyrənməyə sərf edirdi. Bu kurslarda da yaxın yoldaşları, yeni dostları üzə çıxırdı. Həmin dostlardan biri hazırda Qazaxıstan Respublikasının baş naziri vəzifəsində çalışan Kərim Məsimovdur.

Tələbə dünyasında qəhrəmanımızın atdığı uğurlu addımlar, möhkəmləndikcə, yeni ictimai-siyasi mühit, beynəlmiləl münasibətlər onun həyata baxışlarını da zənginləşdiri r, formalaşdırırdı. Qəlbindəki Vətən eşqi daha coşğun vüsət alırdı. Yurd sevgisi, doğma Azərbaycan barədə düşüncələr, yeni məzmun, yeni məna kəsb edirdi. Həmin dövrdə keçmiş sovet məkanında sərt, kommunist ab-havası az da olsa yumşalır, hakimiyyətin yuxarı eşalonlarında nisbi demokratik meyllər özünü büruzə verirdi. Moskvada təhsil alan vətənpərvər gənclər belə tarixi məqamlardan bacarıqla istifadə

edərək Moskva- Azərbaycan tələbə təşkilatının əsasını qoydular. Bu istiqamətdə yorulmaz fəaliyyət göstərən həmyerlilərimizdən biri də Oqtay Hüseynov idi. Bu tələbə təşkilatı ulu Azərbaycan mədəniyyətinin, incəsənətinin ədəbiyyatının, adət-ənənələrinin, milli-mənəvi aləminin daha geniş tanıdılması məqsədilə rəngarəng mədəni-kütləvi tədbirlər, görüşlər keçirir, müxtəlif mövzularda sərgilər təşkil edirdilər. Bu tədbirlər hər dəfə onun iştirakçılarında yüksək təəssürat yaradırdı. Həm tədris uğurları, həm ictimai fəaliyyətləri, həm də sadəcə insani münasibətləri ilə sayğılar qazanan bu azərbaycanlı gəncin tələbə həyatı 1992-ci ildə sona yetir. Universiteti əla qiymətlərlə başa vuran Oqtay böyük elmi şuranın qərarı ilə burada aspiranturada saxlanılır. O, «Xarici investisiyaların beynəlxalq hüquqi tənzimlənməsi» mövzusunda dissertasiya götürdü. Həmvətənimizin elmi rəhbəri isə dünya şöhrətli alim, bir çox beynəlxalq iqtisadi qurumlarda SSRİ-ni təmsil edən, 100-dən artıq elmlər namizədi və doktoru yetişdirmiş İqor Bilişşenko idi. Aspirantura dövründə Oqtay Hüseynovun elmi-yaradıcılıq axtarışları daha məhsuldar xarakter aldı. O, öz elmi işində müstəqil Azərbaycan Respublikasının və nəhəng beynəlxalq şirkətlərlə bağladığı müqavilələrdən də ciddi bəhs edirdi. Ümummilli liderimiz Heydər Əliyevin xalqımızın xoş gələcəyi, rifahı naminə bu sahədə gördüyü misilsiz işlərdən danışırdı. 1994-cü ildə gənc aspirant bağlanmış əsrin kontraktı kimi xüsusi qiymət verilən «Bakı-Jeyhan neft kəmərinin elmi-hüquqi baxımdan ilk araşdırıcılardan biri kimi çıxış etdi. Bu müqavilənin çox mühüm iqtisadi, siyasi və hüquqi dəyərinin təhlilini verdi. Həmin mövzu ilə bağlı Oqtay Hüseynovun Rusiya Federasiyasının geniş tanınmış nəşr orqanlarından biri olan «Təsərrüfat və hüquq» jurnalının 1996-cı il 12-ci sayında çap olunmuş məqaləsi də yetərincə maraqla qarşılandı.

Elmi axtarışlara tükənməz həvəs və cəsarətli, ardıcıl ictimai-siyasi fəaliyyət Oqtayı zirvələrə istiqamətləndirən qoşa qanaddır desək, yanılmarıq. Bəzi faktlara və məqamlara diqqət yetirək. Hələ tələbə ikən o, Moskvada oxuyan azərbaycanlı şagirdlərin ali məktəblərə hazırlaşdırmağa təşəbbüs etmiş, bu layihə getdikcə, ildən-ilə mükəmməlləşmiş, sözün əsl mənasında geniş xarakter almışdır. Artıq 25 ildən çoxdur ki, hər il on nəfərdən tutmuş 30 nəfərə qədər soydaşımız Oqtay müəllimin yanındı hazırlıq kursları keçir, humanitar fənləri səylə öyrənir, nəticədə sevindirici nailiyyətlərə əldə edirlər. Oqtay müəllim iftixarla söyləyir ki, vaxtilə onun abituriyentləri olmuş həmiyerlilərimiz arasında bu gün onlarca adlı-sanlı hüquqşünas, neçə-neçə yüksək rütbəli hüquq-mühafizə orqanı işçiləri var. Hazırda elə təkcə Lomonosov adına Movkva Dövlət Universitetində onun yanında hazırlıq kursları keçən 8 nəfər azərbaycanlı tələbə təhsil alır. Azərbaycanlı tələbələr arasında mokvalı yurddaşlarımızla yanaşı, Moskva vilayətinin müxtəlif guşələrindən hətta Həştərxandan, Belarusdan gələnlər də az olmur.

Oqtay müəllim, ürəkləri ömrün sabahına yönəlmiş min bir arzu ilə çırpınan həmvətənlərimiz olan cavanlara, yalnız elm, bilik öyrətməklə, onların hazırlıq səviyyəsinin yüksəlməsi ilə kifayətlənmir. Bu tanınmış alim, pedaqoq və ictimai xadim gənclərimizə xalqımızın zəngin keçmişini, mədəniyyətini, adət-ənənələrini yüksək mənəvi keyfiyyət-

lərini unutmamağı, sevməyi, yaşatmağı tövsiyə edir. Onlara geniş mənada vətənpərvərlik dərsi keçir,Vətən qarşısında öz övladlıq borclarının ləyaqətlə yerinə yetirməyin vacibliyini xatırladır. Hər zaman da elə-yurda sədaqətdə, Vətən uğrunda misilsiz fədakarlıqda ölməz Heydər Əliyev şəxsiyyətini nümunə göstərir. Ulu öndərimizin Vətən, Azərbaycan naminə, ardıcıl, hüdudsuz fəaliyyətindən söhbət açır. Heydər Əliyev kursunu, daxili və xarici siyasətini layiqincə və yüksək peşəkarlıqla davam etdirən Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin Vətənə olan sönməz məhəbbətindən, bu gün gördüyü nəhəng işlərdən, həyata keçirdiyi möhtəşəm iqtisadi-siyasi abadlıq, quruculuq tədbirlərindən danışır.

Belə bir deyim mənə çoxdan tanışdır. Zaman öz liderlərini özü yetirir. Oqtay Ramazan oğlu da zamanın yetişdirib cəmiyyət qarşısına çıxaran mükəmməl insanlardan biridir. Tarixən ata-baba torpaqlarımıza göz dikib tamah salan, fürsət düşdükcə öz himayədarlarına güvənib məkrli siyasət yeridən nankor qonşularımız, daşnaq ruhlu ermənilər ötən əsrin 80-ci illərinin sonlarında da yeni təcavüzkarlıq siyasəti həyata keçirməyə başladılar. Elimizin-xalqımızın istiqlaliyyət, milli azadlıq uğrunda şərəfli mübarizəsi də məhz bu dövrdən - 1988-ci ildən başlayır. Yurdumuzun bütün vətənsevər övladları bu mücadiləyə qatılır, hər kəs bu yolda öz qüvvəsini əsirgəmirdi. Oqtay Hüseynovun mübariz xarakteri, təşkilatçılıq və liderlik qabiliyyəti də elə bu mürəkkəb vaxtlarda özünü daha qabarıq surətdə büruzə verdi. Ermənilərin Qarabağ torpaqlarının işğalına başladığı, əhalinin doğma ev-eşiklərindən didərgin düşdüyü bu çağlarda Oqtay Hüseynovun başçılığı ilə əsasən tələbə və əməkçi gənclərdən ibarət «Moskva-Azərbaycan» təşkilatı yaradıldı. Çox keçmədi ki, təşkilat yetərincə genişlənərək daha mübariz, mütəşəkkil quruma çevrildi. İndi onun tərkibində gənclərlə bahəm görkəmli alimlər, ədəbiyyat və incəsənət xadimləri, müxtəlif sahələr üzrə mütəxəssislər, görkəmli iş adamları birləşmişdi. Təşkilatın ilkin məqsədi keçmiş SSRİ-nin əlaqədar orqanlarının qəsdən yaratdığı informasiya blokadasını yarmaq, Qarabağ müharibəsinin əsil məhiyyətini, erməni millətçilərinin xalqımıza qarşı törətdikləri görünməmiş vəhşilikləri, Azərbaycan haqiqətlərini Rusiya ictimaiyyətinə, bir çox xalqların nümayəndələrinə çatdırmaq idi. Sonralar isə bu məram daha geniş, dolğun xarakter aldı, hərtərəfli fəaliyyət proqramına çevri ldi. Həmin günləri Oqtay müəllim belə xatırlayır.

- Təşkitımızın fəalları daha çox Moskvanın ali məktəblərinə gedir, Qarabağ savaşının səbəblərini, köklərini ortaya qoyur, onları tarixi faktlarla, elmi dəlillərlə əsaslandırır, erməni riyakarlığının iç üzünü açan məruzələr edirdilər. 1989-cu il dekabrın 14-də AzərTacın bir sıra qəzetlərdə çap etdirdiyi xəbərlərdə deyilirdi ki, Ermənistandan Azərbaycana gələn avtomobillərdə külli miqdarda müxtəlif silahlar və raket qurğuları tutulub. Sabahı gün isə SSRİ Ali Sovetinin növbəti sessiyası keçiriləcəkdi. Burada Azərbaycandan Yerevana gedən qatarların SSRİ Daxili Qoşunları tərəfindən müşayiət olunması barədə qanun layihəsi müzakirə edilib qəbul olunmalı idi. Təşkilatımızın üzvləri çox qısa müddət ərzində həmin xəbər dərc edilmiş qəzetləri SSRİ Ali Sovetinin əksər deputatlarına təqdim etdi. SSRİ Ali Sovetinin iclasında iştirak edən M.Qorbaçov və bu məsələ ilə maraqlanan

deputatlar həmin qanun layihəsinin keçməyəcəyini bilərək onu gündəlikdən çıxardılar. Bu bizim cəmiyyətin yaddaqalan uğurlarından biridir.

1990-cı il 20 yanvar hadisələrində bu görünməmiş ədalətsizlikdən, dəhşətli hadisədən kədərlənmiş, sarsılmış minlərlə yurddaşımız Azərbaycanın Rusiyadakı daimi nümayəndəliyinə axışırdı. Həmin gün Rusiya paytaxtında fəaliyyət göstərən bir «sıra milli» vətənpərvər ictimai qurumlarla birgə Moskva Azərbaycan cəmiyyəti də hərəkatın düzgün idarə edilməsi, onları səhih, geniş məlumatlandırmaq, çaxnaşmaya, provakasiyaya yol verməmək məqsədilə Moskva İctimai Təşkilatlar Komitəsini yaratdı. 50 mindən artıq azərbaycanlının iştirakçısı olduğu etiraz yürüşü təşkil etdik. Daimi nümayəndəliyin binasından Ostankono qülləsinə qədər keçirilən yürüşdə çıxış edənlər bu qanlı qırğını qətiyyətlə pislədi, onu törədənlərin mühakiməsini tələb etdi. Bu çətin, mürəkkəb məqamlarda ümummilli liderimiz Heydər Əliyev də burada xalqın içində, hərəkatın mərkəzində idi. Ulu öndərimizin daimi nümayəndəliyə gəlməsi, onlarla, xarici jurnalistin bu hadisələrlə daha ciddi maraqlanmağa təkan verdi. Heydər Əliyevin etiraz aksiyasında hiddətli çıxışı olduqca böyük maraq doğururdu. Ümummilli liderimiz ölkə rəhbərliyini kəskin tənqid atəşinə tutub onu cinayətkar adlandırdı. Bu cəsarətli çıxış ürəkləri törədilmiş amansızlıqdan od tutub yanan adamları ruhlandırdı. Onları mübarizəyə səfərbər etdi, sanki camaatın qəlbinə soyuq su səpdi.

Rusiyada məşhur Birlik ictimai təşkilatının (hazırda Vahid Rusiya) adlınır «təsis» olunmasında Moskva Azərbaycan cəmiyyəti də yaxından iştirak edib. «Birlik» partiyasının 1999-cu il parlament seçkilərindəki qələbəsində Oqtay Hüseynovun rəhbərlik etdiyi təşkilat da öz köməyini əsirgəmədi, öz sözünü deməyə çalışdı. Bir müddət sonra isə Vladimir Putinin Rusiya Federasiyasının prezidentliyinə namizədliyinin təsdiqlənməsinə dəstək məqsədilə Moskvada Ümumrusiya Azərbayanlılar Konqresinin Mərkəzi Qərargahı yaradıldı. Haqqında söhbət açdığımız soydaşımız bu qurumun da meydana gəlməsində, onun işgüzar mexanizminin hazırlanmasında ciddi əmək sərf etdi. 2000-ci ilin martın 18-də Konqresin məşhur Prezident Otel»də Vladimir Putini dəstəkləyən qurultayı keçirildi. Bu mühüm ictiami-siyasi hadisə ilə bağlı Rusiyanın bütün televiziya kanalları və bir çox digər informasiya vasitələri geniş məlumat verdi. Diqqətəlayiq bir cəhət də odur ki, martın 26-da V.Putin bu dəstəyə görə Azərbaycan Respublikasının prezidenti ulu öndərimiz Heydər Əliyevə öz dərin təşəkkürünü bildirdi.

Oqtay Hüseynov öz həyatını ictimai fəaliyyətdən ayrı saymır. Bu barədə söz düşəndi deyir ki, elin dədə-babadan qalmış məlum bir misalı var: birlik, yekdillik olan yerdə ruzi-bərəkət də boldur, çəkici zindana ellikə vuranda səsi də bərk çıxır, səmərəsi də yüksək olur. Həmyerlilərimizin qürbət diyardakı qayğı və problemləri ilə maraqlanması, onlara müəyyən köməkliklər göstərməsi azərbaycanlılar arasında əlaqələrin genişlənməsi, daha səmimi münasibətlər bərqərar olunması, eyni zamanda vətəndaş hüquqlarının qorunması, hüquqi biliklərinin yüksəldilməsi, bu insanın sanki yaşama kredosudur.

2000-ci ildən Moskva «Azərbaycan» cəmiyyətinin orqanı olan «Azərbaycan diasporu» qəzetinin birinci nömrəsi işıq üzü gördü. Qəzet ilk sayından oxucular arasında fərəh

hissi, bayram əhval-ruhiyyəsi doğurdu. Dərc edilən yazıların məzmunu, mövzu rəngarəngliyi, məqalələrin ruhu, səmimiyyəti, çağırış ahəngi, dedikcə geniş əhatəli elanlar, fotoşəkillərin yaratdığı ovqat, poliqrafiya əlvanlığı, yüksək çap keyfiyyəti həmvətənlərimizin böyük məmnunluğuna səbəb olurdu. Bununla yanaşı qəzetin səhifələrində diasporumuzun sabahı, onun daha da möhkəmləndirilməsi, mütəşəkkil xarakter alması ilə bağlı məqalələr, nəzəri – problematik, analitik səpgili materiallarda ona geniş oxucu məhəbbəti qazandırır. Bu gün də «Azərbaycan diasporu» qəzetinin oxucularla hər görüşü səmimi, yaddaqalan olur. onlara zəngin təəssüratlar bəxş edir.

Şübhəsiz ki , belə həyat və fəaliyyət tərzi böyük zəhmət, həm də vaxt bahasına başa gəlir. Lakin Oqtay müəllim öz işini hər zaman sönməz həvəslə, möhkəm səbatla və ardıcıl surətdə davam etdirir, onu da genişləndirir.

Rusiya Xalqlar Dostluğu Universitetinin dosenti, hüquq elmləri namizədi Oqtay Hüseynov tələbələrə beynəlxalq hüquqi əsaslarını tədris etməklə yanaşı, hazırda Moskva «Azərbaycan» cəmiyyətinin sədri, Rusiya Qafqaz xalqları konqresinin təsis edildiyi vaxtlardan onun həmsədri, «Bizim Rusiya» adlı RF-da milli hərakatları birləşdirən ictimai təşkilatın sədrinin birinci müavinidir. Artıq uzun illərdir ki, fəal ictimai xadim kimi tanınan Oqtay müəllim 2009-cu ildə əsası qoyulmuş «Dünya azərbaycanlıları təşkilatının idarə heyətinin üzvü», 2011-ci ildə bu qurumun Brüsseldəki iclasında icraiyyə komitəsinin sədri seçilmişdir.

27 ildən bəri Rusiya paytaxtında yaşayan. həm seçdiyi sənətə, ictimai mövqeyinə, fəaliyyətinə görə və sadəcə müasir ziyalı kimi bu möhtəşəm şəhərdə saysız-hesabsız əlaqələri, tanışları, dostları olan hüquqşünas alim Oqtay Hüseynov vaxtaşırı Bakıya gəlməyi, qohum-qardaşa baş çəkməyi, gənclik dostları ilə görüşməyi, xeyirdə-şərdə iştirak etməyi vacib sayır. Çox zaman da övladlarını özü ilə gətirir. Onları Bakını az qala addım-addım gəzdirib ölkəmizin baş şəhərinin küçələri, meydanları, xiyabanları, əsrarəngiz gözəllikləri ilə tanış etməyi çox sevir və bundan böyük fərəh hiss duyur. İstəyir ki, yurdumuzun və onun paytaxtının özünəməxsus hüsnü, xarakteri, ətri ciyərparalarının da yaddaşında ömürlük iz salsın, onlar da anamız Azərbaycanı azman, tükənməz bir məhəbbətlə sevə bilsinlər.

Yeri gəlmişkən deyək ki, Oqtay müəllim dörd övlad atasıdır. Hələ tələbəlik illərində ürəyində tutmuşdu ki, oğlu olsa adını yer üzünün ən dahi şəxsiyyətlərindən biri hesab etdiyi, ümummilli liderimiz Heydər Əliyevin şərəfinə Heydər qoysun. Tale bu insanı niyyətinə yetirdi. İndi Heydərin 16 yaşı var. Orta məktəb şagirdidir. O, öz təhsili, əməlləri ilə çalışır ki, bu ada layiq olsun. Elə Fidan, Bikə, Tural da bu ailəyə, ocağa nəhayətsiz sevinc, səadət, həyata, sabaha məhəbbət işığı saçır…

Bu da Oqtay müəllim haqqında demək istədiklərim. Bilirdim ki, əvvəl-axır bu yazını yazacağım. O da aydın idi ki, peşə fəhmi məni istəyimə xilaf çıxmağa qoymayacaq. Amma görəsən sözün, sözümün gücü çatdımı, 15-16 il bundan əvvəl tanıdığım bu insan, Azərbaycan oğlu barədə düşündüklərimi ifadə etsin.

*Nizami Rəhmanlı*
*Moskva-Bakı*